# Azərbaycanın regionlarının inkişafında turizmin rolu

**Turizmin inkişafı və turizm sektorunun ölkə iqtisadiyyatının aparıcı sferalarından birinə çevrilməsi bu gün Azərbaycanda ən mühüm vəzifə olaraq qarşıda durur.**

**Son illər Azərbaycanda əldə olunmuş sosial-iqtisadi irəliləyiş bu vəzifənin yeni imkanlara adekvat səviyyədə həllinə şərait yaradır. Ölkəmizin təbii ehtiyatlarla, antropogen və sosial-iqtisadi ehtiyatlarla zəngin olması turizmin inkişafını şərtləndirən amillərdəndir. Bu ehtiyatlardan istifadə etməklə ölkəmizi turizmi inkişaf etmiş ölkələr sırasına çıxarmaq olar.**

Tarixi abidələrlə zəngin olmasına baxmayaraq, bu abidələrin bəzilərinin bir-birindən çox uzaq məsafədə yerləşməsi ekskursiyalar zamanı onlardan istifadəni məhdudlaşdırır. Ölkəmizdə turizmin inkişafı istiqamətində mühüm addımlar atılmışdır. Bunlara "Azərbaycan Respublikasında turizmin inkişafına dair 2002-2005-ci illər üçün" Dövlət Proqramını, "Azərbaycan Respublikası regionlarının sosial-iqtisadi inkişafı Dövlət Proqramının (2004-2008-ci illər)", "2010-2014-cü il turizmin inkişafına dair dövlət proqramı"nı qeyd etmək olar.

Ölkəmizdə turizmin əksər növlərinin inkişafı üçün geniş imkanlar mövcuddur. Ölkədə turizmin əhəmiyyətini artırmaq, turizm potensialını təbliğ etmək, yerli adət-ənənələri, milli mətbəxi, mədəni və tarixi irsi tanıtmaq məqsədi ilə tematik nəşr məhsulları (kitab, buklet, CD və DVD-lər və s.) hazırlanır və yayılır, dünyanın müxtəlif televiziya kanallarında reklam çarxı nümayiş etdirilir, həyata keçirilən yeni layihələr barədə reklam və elanlar verilir, bu istiqamətdə internet imkanlarından və digər elektron daşıyıcı vasitələrindən də geniş istifadə edilir.

Görülən kompleks işlərin nəticəsi olaraq ölkəyə gələn turistlərin sayı ilbəil artır, ölkədə fəaliyyət göstərən turizm şirkətləri şəbəkəsi genişlənir. Statistik nəticələrə əsasən 2003 - cü ildə 767 533, 2004 - cü ildə 988 757, 2005 - ci ildə 861 255, 2006- cı ildə 903 889, 2007 - ci ildə 1 010 792, 2008 - ci ildə 1 408 988 xarici turist ölkəyə gəlmişdir.

Hazırda respublikada 123 turizm müəssisəsi lisenziya əsasında fəaliyyət göstərir və 2002-ci ilə nisbətən onların sayı 3 dəfədən çox artmışdır. Hal-hazırda 138 turizm şirkəti ölkəmizdə fəaliyyət göstərir. Ölkəmizdə uzun müddət getmə turizm daha çox inkişaf etmişdir. Lakin daxili turizmin inkişafı ölkə üçün daha əhəmiyyətlidir.

ETT-nin ölkəmizin turizminə tətbiq edilməsi, turoperatorlar, mehmanxana müəssisələri öz fəaliyyətlərində kompyuter texnikasının və telekommunikasiya vasitələrinin yeniliklərindən istifadə etsələr, turizmin inkişafına səbəb ola bilər. Lakin təəssüf hissi ilə qeyd edilməlidir ki, ölkəmizdə turizm infrastrukturunun yaradılmasına baxmayaraq, turizm sənayesində inhisarçılıq mövcuddur. Xüsusilə ölkəmizin turizm bazarında qiymət rəqabəti mövcud deyil. Bu da turizmin inkişafını ləngidir.

Turizmdə ən önəmli faktorlardan biri infrastrukturun yaradılmasıdır. Lakin bir çox bölgələrimizdə turizm potensialının olmasına baxmayaraq, infrastrukturun zəif inkişafı səbəbindən inkişaf lazımi səviyyədə deyil. Xüsusilə son illər Qəbələ, Xaçmaz, Lənkəran, Quba, Şəki və s. rayonlarda turizmin inkişafı ilə əlaqədar şərait də yaxşılaşdırılmışdır.

Yerləşdirmə müəssisələrinin, qidalan-

ma müəssisələrinin yaradılması və mövcud olanlarda xidmətin səviyyəsinin artırılması üçün önəmli addımlar atılır. Azərbaycanda turistlərin yerləşdirmə biznesi dinamik surətdə inkişaf edir. 2002-ci ildə ölkədə fəaliyyət göstərən mehmanxana və mehmanxana tipli müəssisələrin sayı 94 olduğu halda, ötən dövr ərzində onların sayı 4 dəfə artaraq 370-ə çatmışdır. Bu obyektlərdə ümumi yerlərin sayı da 2002-ci illə müqayisədə təxminən 3 dəfə çoxdur.

Turizm sektoru, turistlərin etdiyi xərcləmələrlə daxili bazarı canlandırmaqda olub, turizmdən əldə edilən gəlirin ortalama olaraq 27-%-i dövrlərə, 23% yerləşmə müəssisələrinə, 10% qidalanma müəssisələrinə, 10%-i hədiyyəlik əşya, zərgər, xalça- kilim firmalarına, qalanı da tütün, əyləncə-mədəniyyət, avtokirayəyə götürmə və s. xidmətləri təmin edənlərə qalmaqdadır.

Bir iqtisadiyyatda turizmin inkişaf etdirilməsinin əsas səbəbləri və gözlənilən nəticələri araşdırıldığında bu sənayenin iqtisadiyyatdakı rolu və əhəmiyyəti də ortaya çıxmaqdadır. Bu araşdırma, turizmin iqtisadi potensialını və turizm müəssisələrinin milli və regional iqtisadiyyatda təmin edəcəyi birbaşa və dolayı təsirləri ortaya qoyacaq. Ancaq turizmin iqtisadi faydalarının reallaşa bilməsinin hökumətlərin turizm siyasətlərinə və turizm inkişaf etdirmə proyektlərini tətbiq və nəzarət etmə qabiliyyətlərinə bağlıdır.

Turizmin ölkəyə sosial-iqtisadi təsirləri aşağıdakı kimidir: məşğulluğun təmin edilməsi. Məşğulluq, geniş mənada bütün istehsal faktorlarının, dar mənada yalnız əmək faktorunun istehsala qatılmasıdır. Turizm, inkişafa və tələbin sıxlığına bağlı olaraq iqtisadiyyatda məşğulluq təsiri yaradır. Bu təsir birbaşa, endirekt və əlavə məşğulluq olmaq üzrə üç şəkildə reallaşır.

Birbaşa məşğulluq, turizm sektorunda birbaşa yaradılan məşğulluqdur. Sektorun əmək-sıx istehsal tərzi ilə çalışması, nəqliyyat və qidalanma müəssisələri birbaşa məşğulluq təsirini artırır. Endirekt məşğulluq, turizm sektoruna mal və xidmətlə təmin edən yan sektorlarda yaradılan məşğulluqdur. Əlavə məşğulluq isə birbaşa və endirekt məşğulluqla təmin edilən gəlir xərcləndikcə turizmin təsiriylə iqtisadiyyatda yaradılan məşğulluğu əhatə edir.

Turistik tələbin sıxlaşdığı dövrlərdə iş-gücü tələbi də artaraq məşğulluq sıxlığına təsir edir. Turizmin yaratdığı məşğulluq, mövsümlük olması, yarı səriştəli və xüsusiyyətsiz iş-gücünə yer verməsi, qadın personal sayının çox olması kimi xüsusiyyətlər daşıyır. Azərbaycanda turizmin iqtisadi faydalarını araşdırarkən ilk növbədə məşğulluğa təsirini göstərmək olar. Statistik məlumatlara əsasən bu sahədə çalışanların sayı 2006-cı ildə 4338, 2007-ci ildə 4739, 2008-ci ildə isə 5616 nəfər olmuşdur.

Turizmin kənd təsərrüfatına təsiri. Turizmin inkişafına paralel olaraq, gəlir təsirinin artması, əkinçilik sektorunda istehsal keyfiyyətinin artmasına və keyfiyyətli məhsulun dəyərini tapmasına səbəb olar. Əkinçilik məhsullara istiqamətli birbaşa turistik istehlak xərcləmələri yanında turizmdən gəlir əldə edənlərin xərcləmələri də endirekt gəlir təsiri yaradar. Bölgələrimizdə kənd təsərrüfatını inkişaf etdirilməklə qidalanma müəssisələrində yalnız yerli istehsal məhsullarından istifadə etmək olar. Yerli məhsullar daha ucuz və ekoloji cəhətdən daha təmizdir.

Sənaye sektoruna təsiri: İstehlak malı çıxaran sənayelər üzərində turizmin təsiri çoxdur. Turistik ehtiyacların istiqamətləndirdiyi tələbə uyğunlaşma təmin edilməsi məqsədiylə qida, içki, tütün məmulatları, toxuma, geyim kimi sənaye sahələrində çıxarılan malların turistik standartlara uyğun olmasına çalışılmalıdır.

Turizmin infrastruktura təsiri: Fiziki infrastruktur, bir yerləşmə mərkəzində davamlı yaşayanların faydalandıqları su, enerji, bölgə içi nəqliyyat şəbəkəsi, kanalizasiya sistemi, təmizlik ilə əlaqədar təsis və vasitələr, avtoparklar, idman təsisatları, yığıncaq və konqres təsisatları, xəbərləşmə sistemləri kimi infrastruktur təsisatları və xidmətləri, nəqliyyat sisteminin lazım olan infrastruktur və turizm sənayesinin qurulması ilə əlaqədar təməl ehtiyacları qarşılayan infrastrukturdan meydana gəlir.

Turizm gəlirlərinin ölkə iqtisadiyyatına təsiri xüsusilə xarici ticarət gəlirləri baxımından böyük əhəmiyyət daşıyır. Azərbaycana son illərdə gələn turist sayının artmasına bağlı olaraq turizm gəlirinin iqtisadiyyata təsiri artmışdır. Ölkəmizin zəngin tarixi-memarlıq abidələri, Nabran, Qəbələ və s. də yerləşən beynəlxalq əhəmiyyətli turizm mərkəzləri, Xəzər sahili bölgələrdə turizmin inkişafına yönəldilmiş səylər ölkəmizə gələn turistlərin sayını artıracaqdır. Bu da ölkəmizin iqtisadiyyatında öz təsirini göstərəcəkdir. Bölgələrdə turizmin inkişafı ilə əlaqədar olaraq əhalinin gəlirləri artır, maddi rifah halı yaxşılaşır. Belə ki, xalq sənətkarlığının ayrı-ayrı növləri-dulusçuluq, misgərlik, xalçaçılıq, toxuculuq kimi sahələrin inkişafı suvenir sənayesində istifadə edilir və əhali bunun sayəsində gəlir əldə edir.

Turizm əhalinin keyfiyyətli həyat tərzi sürməsinə şərait yaradan, həyat səviyyəsinin yüksəlməsinə təkan verən bir sektordur. Yüksək səviyyəli həyat tərzinin bir simvoluna çevrilmiş turizm məhz bu aspektdən müasir dövr insanlarının gündəlik tələbatlarından biri kimi göstərilə bilər. Müasir cəmiyyət üzvünün yüksələn mədəni səviyyəsi, onun intellektual-yaradıcı keyfiyyətləri bunların daha da yüksəldilməsi tələbatını yaradır.

Turizmin müsbət təsir amilləri mədəni fəaliyyətin artmasıdır. Belə ki, turistləri cəlb edəcək vasitələrdən olan təbii ehtiyatlar və mədəni abidələr qorunur və inkişaf etdirilir. Başqa sözlə desək, yerli sakinlər təbii ehtiyatları iqtisadi istehsala cəlb etməkdən çəkinərək bu ehtiyatları turizm məqsədilə istifadə edir. Çünki artıq maariflənmiş əhali hiss edir ki, iqtisadi istehsal çox, lakin qısa müddətli gəlir gətirir.

Regionlarda turizmin inkişafı həm də yerli sakinlərin təhsil, maarif səviyyəsinə təsir edir. Belə ki, bölgəyə səyahət edənlərlə əlaqə quran yerli sakinlər bilavasitə dünyagörüşlərini artırmaq imkanına malik olurlar.

**Turizmin ölkə təbiətinə, ekologiyasına mənfi təsirləri də az deyil. Belə ki, təbiət qoynunda, meşələrdə tikilən yerləşdirmə müəssisələri ərazidə mövcud olan heyvanların uzaqlaşmasına səbəb olur. Həmçinin turistlər tərəfindən ərazi istismar olunur, çirklənir, zibillənir. Bunun qarşısını almaq üçün müəyyən tədbirlər keçirilməlidir. Təbiətə minimum ziyan vurmaqla fəaliyyət göstərilməsinə nail olunmalıdır.**

● **Gülnar ƏHƏDOVA,**
***ADMİU-nun kulturologiya fakültəsinin magistri***

## Ədəbiyyat

1. Azərbaycan regionlarının sosial-iqtisadi inkişafının Dövlət Proqramı (2009-2013-ci illər). Azərbaycan Respublikası Prezidentinin fərmanı. Bakı - 2009.
2. "Azərbaycan Respublikasında 2010-2014-cü illərdə turizmin inkişafına dair dövlət proqramı" Bakı şəhəri, 6 aprel 2010-cu il.
3. B.Ə. Bilalov Turizm fəaliyyətinin tənzimlənməsi. Bakı, "Mütərcim" - 2006.
4. V.S. Dərgahov Rekreasiya- turizm ehtiyatları. Bakı, "MBM" - 2008.
5. İ. Hüseynov, N. Əfəndiyeva. Turizmin əsasları. Bakı, "Mars-Print" NPF -2007.
6. "Tur Marketinq" jurnalı - 2010, №1.
7. "Azerbaijan Preview", 1(36)2009 International Tourist Magazine, Baku - 2009, №1.
8. "Travel Guide for the Southern districts", GTZPSDP/GFA consulting group, Baku - 2010.

**Summary**

**The Place of Tourism Sector in Development of Azerbaijan Regions**

In this thesis the importance of the tourism - one of the most attractive sectors of modern world of the industry was defined and its role in regional development was identified. The current situation of Azerbaijan Tourism was investigated, and its direct and indirect impact area to regions was analyzed. Together with employment, local production, small entrepreneurship and income influences of tourism to economics, its role for local people was revealed. Apart from it, problems of tourism were also reflected at the same line with economical and social benefits to the regional development of Azerbaijan. Considering all these advantages of tourism, its development perspectives and necessary measures that should be taken for realization of this purpose was clarified.